UOT 94 (479.24)

AZƏRBAYCANIN ORTA ƏSR SİLAHLARI ÜZƏRİNDƏ KİTABƏLƏR

(AMEA Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)

Həbibə Əliyeva
AMEA Milli Azərbaycan Tarixi Muzeyinin direktor müavini, tarix üzrə fəlsəfə doktoru
e-mail: ahebibe@gmail.com

Açar sözlər: *silah, kitabə, tiyə, qın, dəstək, süls, nəsx, nəstəliq*

Orta əsrlərdə tez-tez baş verən xarici basqınlar və ara müharibələri Azərbaycanda silah istehsalının xüsusi yer tutmasına və bu sənətin inkişafına əsas səbəb olmuşdur. Kütləvi şəkildə istehsal olunan müxtəlif növ silahların hazırlanmasına yerli peşəkar ustalar cəlb olunurdu. Bu səbəbdən də orta əsr abidələrindən arxeoloji qazıntılar nəticəsində başqa maddi-mədəniyyət nümunələri ilə birlikdə müxtəlif silah növləri də aşkar edilmişdir (1, s. 47-50, 71-72, 78-93).

Azərbaycanın Qəbələ, Bərdə, Gəncə, Naxçıvan, Şabran, Şamaxı, Bakı və s. kimi orta əsr şəhərlərində aparılmış arxeoloji qazıntılar zamanı və ya təsadüf nəticəsində tapılan müxtəlif silah növlərinin əksəriyyəti Milli Azərbaycan Tarixi Muzeyinin (MATM) Arxeologiya Fondunda qorunub saxlanılır (2, s.19-26, 46-47, 52- 54, 76-78, 131-134).

Arxeoloji qazıntılar zamanı qeyd olunan şəhərlərdən tapılan müxtəlif tipli (döyüş və müdafiə) silahlarının əksəriyyətinin formasını saxlaması onların haqqında müəyyən fikirlər söyləməyi asanlaşdırır. Lakin əsasən ox, təbərzin, qılınc, xəncər, bıçaq, tüfəng, naqan və s. kimi soyuq və odlu döyüş silahlarının tiyələrinin, bəzən də sulğuncunun uc tərəfi qırılmış vəziyyətdə tapılır. Səbəb isə bu hissələrin nazik təbəqədən olması və uzun müddət torpaqda qaldığı üçün güclü korroziyaya uğramasıdır. Belə vəziyyət onların bütöv forma və ölçüləri haqqında bir fikir söyləmək işini çətinləşdirir (MATM-ın "Arxelogiya Fondu").

Bəhs etdiyimiz arxeoloji qazıntılar zamanı tapılmış döyüş və müdafiə silahlarının bədii tərtibatlı və yazılı olmasına çox az hallarda təsadüf olunur. Bu amil arxeoloji qazıntı zamanı tapılan döyüş və müdafiə silahları haqqında epiqrafik müqayisələr aparmağa imkan vermir. Azərbaycanın orta əsr hərb tarixini araşdıran S.Əhmədovun və E.Cəfərovanın "Azərbaycanın orta əsr silahları (arxeoloji materiallar əsasında)" adlı kitabında Azərbaycan ərazisində orta əsrlər dövründə istifadə edilmiş müxtəlif tipli silahlar haqqında geniş şərh verilmişdir. Tədqiqatçılar zəngin arxeoloji materiallardan, orta əsr miniatürlərindən, yazılı mənbələrdən yararlanaraq Azərbaycan şəhərlərindən tapılmış silah nümunələrinin müqayisəli təhlilini vermişlər. Lakin, orta əsrlərə aid müxtəlif tipli silah növləri aşkar olunsa da, tədqiqatçılarımızın onların üzərində müxtəlif yazıların forması haqqında qeydlərinə rast gəlinmir.

1.

Orta əsrlərdə döyüş silahları kimi əsasən qılınc və xəncərdən geniş istifadə edilmişdir. Şamaxının Çıraqlı ərazisindən tapılmış ilk orta əsrlər dövrünə aid (ölçüsü: 1,50x56) əlləri qoynunda, belində kəmərdən qılınc və xəncər asılmış daş insan heykəli MATM-ın ekspozisiya zalında nümayiş olunur. Bu heykəl bir döyüşçüyə və yaxud da sərkərdəyə məxsus məzarüstü daş olduğunu göstərir (şək. 1). Belə ki, IX əsrdə xürrəmilərin qılınc və xəncərlə silahlanmaları haqqında yazılı məxəzlərdə də məlumatlar vardır (4, s.115). VII-IX əsrlərə aid şifahi xalq ədəbiyyatı nümunəsi olan "Kitabi-Dədə Qorqud" dastanın "Bəkil oğlu İmran

2.

boyunda Gürcüstandan gələn xəraclar arasında "... bir at, bir qılınc ... gətirdilər" söyləməsi və Bamsı Beyrəyin düşməni qılıncın altından keçirməsi səhnəsi, qılıncın həm döyüş silahı, həm də mərdlik, ərənlik simvolu kimi təqdim edilməsi bu dövrlərdə də qılıncın əsas silah kimi döyüşlərdə istifadəsinin, hədiyyə verilməsinin göstəricisidir" (5, s.249).

Azərbaycan ədəbiyyatının Xaqani Şirvani, Nizami Gəncəvi kimi klassiklərinin əsərlərində öz əksini tapmış döyüş səhnələrində müxtəlif hücum və müdafiə silahları, o cümlədən zireh, qalxan, dəbilqə, qılınc haqqında qiymətli məlumatlar vardır. N.Gəncəvi "İsgəndərnamə" poemasında qılıncı belə təsvir edir: "Yəməni qılıncı içirmiş zəhər" və yaxud "Qılıncı görməmiş hər iki əldə, bıçağı, nizəni köksdə, beldə" (6, s.86).

Azərbaycan ərazisində aşkar edilmiş orta əsrlərə aid məzar daşları üzərindəki kitabələrlə yanaşı, qılınc və xəncər təsvirlərinin olması faktını görkəmli alim Məşədixanım Nemət də "Azərbaycanın epiqrafik abidələrinin korpusu" adlı əsərində qeyd etmişdir. Orta əsr Ağsu şəhərinin ətrafında olan qəbiristanlıqdakı döyüşçülərə aid məzar daşlarının üzərində də bu faktla qarşılaşdıq. Məzar daşlarının əksəriyyətinin üzərində əsasən qılınc və xəncər rəsmləri təsvir edilmişdir (7, s.71, 138, 250-279). Azərbaycanda olan bu təsvirlərin analoqlarının Orta Asiyada, Türkiyədə və Dağıstanda da olması faktı tədqiqatçılar tərəfindən təsdiqlənmişdir (8, s. 22-37, 81).

Azərbaycanda soyuq silah növünə aid olan qılınc və xəncər istehsalının son zamanlara qədər mövcud olması xalqın bu döyüş silahlarından əsrlər boyu ənənəvi surətdə istifadə etdiyini göstərir. Arxeoloji materiallar, yazılı mənbələr, miniatürlər əsasında Azərbaycanda orta əsrlərdə yaxınməsafəli döyüşdə tiyəli silahların istifadə olunmasının ümumi mənzərəsini qeyd etmək mümkündür. Belə ki, yaxınməsafəli döyüşdə tətbiq edilən tiyəli silahların növlərinin silahşünaslıqda təsnifatı belədir: düztiyəli qılınc (tiq), palaş, əyritiyəli qılınc (kılıç), xəncər və döyüş bıçağı (şək. 2).

Qeyd etdiyimiz yaxınməsafəli silah növləri MATM-ın "Bayraqlar və silahlar fondu"nun zəngin kolleksiyasını bəzəyir.

3.

Düztiyəli ikiağızlı qılıncın hər iki tərəfi kəsici, döğrayıcı və batırıcı silahdır. Bu silahda tiyənin kəsici hissəsi ucluğa tərəf ya yarımdairəvi, ya da itiuclu formada hazırlanır. Bu tip düztiyəli, ikiağızlı, uc tərəfi yarımdairəvi qılınclar nazik təbəqəli polad materialdan hazırlanırdı. Düztiyəli qılıncın ölçüləri: ümumi uzunluğu 88,5 sm, tiyənin uzunluğu 75 sm, eni 4,5 sm, dəstəyin uzunluğu 13,5 sm, eni 3,5 sm–dir (SF – avad. № 324, şək. 3).

Qılıncın tiyəsi uc hissəsindən başlamış üzəri hər iki tərəfdən xüsusi haşiyənin içində süls

xəttilə kitabəni iki hissəyə bölən qıvrılmış ilan təsviri döymə üsulu ilə işlənmişdir. Bu haşiyədən sonra altı ədəd haşiyənin içində ortadan düz xətlə bölünmüş kitabə təkrar yazılmışdır: "Əzəmətli adil sultan, sultanlar sultanı, xaqanlar xaqanı"

Bu cür kitabə MATM-ın orta əsrlər zalındakı Şirvanşahlara aid divar daşına üç sətirlik kufi xəttlə və II Şah Təhmasib Səfəvi dövrünə aid siniyə nəsx xətlə həkk olunmuşdur (9, s.18-19, 39). Tiyənin tutacağa yaxın olan hissəsi çox zərif formada bir-birinə keçmiş xüsusi haşiyənin içindəki nəbati naxışlar ilə bəzədilmişdir. Hər iki tərəfdə həkk olunan kitabə və naxışlar eynidir.

Qılıncın dəstəyi qara rəngli metaldan qalın təbəqədən hazırlanmışdır. Tiyə hissədən buynuz formasında olub hər iki tərəfdən lalə gülünə bənzər xüsusi formada düzəldilərək, dəstəyin sonuna qədər iki hissədən də əldən çıxmamaq üçün çıxıntılar döymə üsulu ilə işlənilmişdir. Tutacağın üzəri tam nəbati naxışlar ilə qızılışləmə ilə bəzədilmiş, lakin istifadə müddətində bu təsvirlər silinmişdir.

Qılıncın qını qalın göndən hazırlanmış və uc hissədən yarpağa bənzər xüsusi formada kəsilən metal lövhə qına bənd edilmişdir. Metal lövhənin üzəri qara rəngli mina məhlulu ilə çox zərif həndəsi və nəbati naxışlar ilə bəzədilmişdir. Digər tərəfində isə minalı məhlul ilə yarpaq formasındakı təsvirin içi nəbati naxışlanmışdır. Qeyd etdiyimiz qının orta və son hissəsində iki ədəd ona keçirilmiş yarpaq formasında metaldan kəsilmiş lövhələr üzərində qara rəngli mina məhlulundan yazılmış kitabə çətinliklə oxunur. Kitabə ərəb dilində nəsx xəttilə həkk olunmuşdur: "Ya qazi əl-hacət" – "Ey çətinlikləri açan hakim!". Digər haşiyədə isə qılıncın sahibinin adı yazılmışdır: "Sahibi ibn Muhəmməd" - "Sahibi Məhəmməd oğlu". Lövhələrin üzərindəki yazılar qılıncın cox istifadə olunmasını göstərir ki, bu səbəbdən də həkk olunmuş kitabələr çətinliklə oxunur. Metal lövhələrin yan hissələrindən kiçik halqalar bənd olunmuş və üzərilərinə nazik dəridən beldən asmaq üçün asma kəmər vardır. Bəhs etdiyimiz düztiyəli qılınclar əsasən daha cox sayda MATM Arxeologiya fondunda qorunur (10, s.228-232).

Əyritiyəli qılınclar (kılıc)- bir və ya ikiağızlı əyri (sivri) formada tiyəsi olan yaxınməsafəli doğrayıcı silahdır. Belə silahlardan sayılan məşhur Dəməşq poladından hazırlanan polad tiyəli qılınclar, adətən Şərq silah növünə aid edilir. Tədqiqatçılar əyritiyəli qılıncların Şərqdə VII-IX əsrlərdə, Rusiyada XI əsrlərdə (11, s.178-179), Qərbi Avropa ölkələrində isə daha sonrakı dövrlərdə, yəni XV əsrdə istehsal olunmasını elmi araşdırmalar nəticəsində təsdiqləyirlər.

Müxtəlif regionların hərb işinin inkişafında müharibələr zamanı əldə olunmuş düşmən silahlarına bənzər silahların istehsalı böyük rol oynayır. Bu nöqteyinəzərdən silaha maraq və tələbat güclü olmuşdur. Orta əsr silahlarının təhlili hər bir cəmiyyətin hərbi-siyasi, iqtisadi və sosial quruluşu haqqında qiymətli məlumat verir. Şərq silahının Avropa ölkələrində orta əsrlərdə yayılmasının yollarından



4.

biri də ölkələr arasında baş vermiş silahlı toqquşmalardır. İspaniyanın Toledo şəhərində Şərq silah növləri istehsal edən ustaların əl işləri buna əyani sübutdur. Hal-hazırda da Toledo şəhərində dəmirçi sexlərində Dəməşq poladından qılıncların hazırlanması prossesi ustalar tərəfindən şəhər sakinlərinə və xarici qonaqlara nümayiş olunur. XI əsrin əvvəllərində İspaniyanın Ərəb Xilafəti tərəfindən işğalından sonra ərəblərin Dəməşq poladından qılınc hazırlama ənənəsi daha sonralar ispanlar tərəfindən davam etdirilmişdir (12, s.109).

6.

MATM-nin silah kolleksiyasında daha çox əyritiyəli qılınclar mühafizə olunur. Düztiyəli qılınclarla müqayisədə, əyritiyəli qılınc fraqmentlərinin sayca çox olması onların daha geniş yayıldığından xəbər verir. Bəhs etdiyimiz poladdan hazırlanmış birəğızlı əyritiyəli qılıncın ümumi uzunluğu 91 sm, tiyəsinin uzunluğu 80 sm, eni 0,3 sm, dəstəyinin uzunluğu 11 sm, eni 0,2 sm-dir (SBF avad.№ 1831, şəkil 4).

Tiyəyə bənd olunmuş dəstəyin üzərinə uzunsov, rombvari formalı metaldan hazırlanmış lövhə və tutacağın baş hissəsinə bənd olunmuş ilan başına bənzər oymaq düzəldilmişdir (qılınc əldən sürüşüb çıxmasın deyə, tutacaq və tiyənin arasındakı məsafəni ayırmaq üçün silahın xüsusi formada hazırlanmış bir hissəsi). Qılıncın tiyəsini bir üzü sadə olsa da, digər tərəfinə baş hissədən qızılı işləmə ilə süls xəttilə ərəb dilində kitabə həkk olunmuşdur: "Əsədullah Əli Səfinin işi". Haşiyənin yuxarı və aşağı hissəsində quş təsviri qızıl suyu ilə işlənmişdir. Bu haşiyədən sonra tiyənin baş hissəsində qızıl suyuna çəkilmiş xüsusi kənarları olan nəbati naxışlı haşiyənin içində kitabədə süls xəttilə ərəb dilində Allaha müraciətlər həkk olunmuşdur: "Ya qazi əl-hacət" – "Ey çətinlikləri açan hakim!", "Ya rafi əl-daracət" – "Ey dərəcələri qaldıran!", "Ya kafi əl-mauhumat" – "Ey maddi cəhətdən mükafatlandıran!" – "fi sənə 1150" - hicri qəməri tarixlə 1150, miladi təqvimilə 1736/37-ci ildə. Bu haşiyədən sonra qızıl suyu ilə kalliqrafik yazıda "Fəth" surəsinin (48-ci surə) birinci və ikinci ayələri həkk olunmuşdur. Kitabənin tərcüməsi: "Rəhimli və mərhəmətli Allahın adı ilə. 1.(Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə (müsəlmanların fütuhatının başlanğıcını qoyan, Kəbənin yerləşdiyi Məkkə şəhərinin, habelə bir çox başqa məmləkətlərin fəthinə səbəb olacaq Hüdeybiyyə sülhü ilə) açıq-aşkar bir zəfər bəxş etdik! 2. Allah (bununla) sənin əvvəlki və sonrakı günahlarını bağışlayacaq, sənə olan nemətini tamam-kamal edəcək və səni düz yola müvəffəq edəcəkdir!" (13, s.518).

5.

Əyritiyəli digər qılıncın ümumi uzunluğu 99 sm, tiyəsinin uzunluğu 86 sm, eni 0,35 sm, tutacağın uzunluğu 13 sm, eni 0,2 sm-dir (SBF avad.№ 741, foto 3). Poladdan hazırlanmış tiyənin hər iki üzü sadə formada düzəldilmişdir. Lakin tiyə ilə tutacağın üzərinə hər iki tərəfdən bənd edilmiş xüsusi formalı metalın üzərindəki medalyonun içərisində döymə üsulu ilə gözəl süls xəttilə ərəb dilində "Bismillahir rahmənir-rahim", tərcüməsi "Rəhimli və mərhəmətli Allahın adı ilə" həkk olunmuşdur. Digər üzündə isə "Qurani-Kərim"in "Saf" surəsindən (61-ci surə 13–cü ayə) məşhur cümlə olan "Nəsrun min Allahi və fəthun qaribun"

ayəsi süls xəttilə ərəb dilində çox zərif formada yazılmışdır. Kitabənin tərcüməsi: "Kömək Allahdandır və qələbə yaxındır". Qeyd etdiyimiz bu kitabəyə biz bayraqlar və digər soyuq silahlar üzərində də rast gəlirik (14, s.13-28). Qılıncın tutacağı hər iki tərəfdən taxta ilə tiyəyə bənd olunmuş metala bərkidilib. Tutacağın başındakı yan tərəfə əyilən hissənin üzərinə ilan başına bənzər oymaq formada metal hissəcik bənd olunub. Bu ilanabənzər metalın hər iki üzündə kalliqrafik yazı olan "Ya Həsən" və "Ya Hüseyn" kəlmələri döymə üsulu ilə işlənilmişdir. Bütün bu kitabələrin üzəri qızıl suyu ilə işlənmiş, lakin çox istifadə edildiyindən qılıncın üzərindəki təsvirlər tamam silinmişdir.

7.

Poladdan hazırlanmış əyritiyəli qılıncın ümumi uzunluğu 70 sm, tiyənin uzunluğu 57 sm, tiyənin eni 0.35 sm, tutacağın uzunluğu 13 sm, eni 0.2 sm-dir (SBF avad. № 1039, şəkil 5).

Qılıncın tutacağının hər iki tərəfinə sümükdən hazırlanmış hissəcik bənd olunmuşdur. Tiyə və tutacağın üzərinə sarı rəngli xüsusi formalı metal hissəcik olan lövhə bənd olunmuşdur. Rombvari metal lövhənin üzəri döymə üsulu ilə zərif formada nəbati naxışlarla bəzədilmişdir. Qılıncın tiyəsinin bir tərəfi tam qızıl suyu ilə nəbati naxışlanmışdır. Tiyənin digər tərəfində isə qızılı suyu ilə tuğraya bənzər haşiyənin içində kitabə ərəb dilində həkk olunmuşdur. "Əməl Yusif, sahibi Mustafa". Kitabənin tərcüməsi: "Yusifin işi, sahibi Mustafa".

Digər əyritiyəli birağızlı qılıncın ümumi uzunluğu 99 sm, tiyəsinin uzunluğu 89 sm, eni 0,35 sm, dəstəyinin uzunluğu 11 sm, eni 0,2 sm-dir (SBF avad. № 292, şəkil 6).

Qılıncın tutacağının hər iki tərəfi sümükdən hazırlanmış və tiyənin əsas baş hissəsindəki əl ilə tutmaq üçün olan sahəyə bənd olunmuşdur. Tutacağın başına bənd olunan metaldan hazırlanmış oymağabənzər hissənin üzərində qızılı işləmə ilə tək lalə gülü, kənarlarında isə haşiyələnmiş ərəb islimi (qıvrım bir xətt üzərində çiçək və yarpaq təsvir edilmiş naxış) naxışları yer tutur. Tutacaq və tiyəyə birləşmiş hissənin üzərinə hər iki tərəfdən xüsusi formada kəsilmiş rombvari metal lövhə bənd olunmuşdur. Bəhs etdiyimiz metal hissəciyin hər iki üzünün kənarları səkkizguşəli həndəsi naxışlanmış və haşiyənin içərisi nəbati qızılişləmə ilə bəzədilmişdir. Qeyd etdiyimiz haşiyənin mərkəzində səkkizləçəkli gül təsviri çox nəfis formada yüksək səviyyədə qızılişləmə ilə naxışlanmışdır.

Poladdan hazırlanmış qılıncın tiyəsinin bir tərəfi sadə formada olsa da, digər tərəfində cızma üsulu ilə səkkizguşəli həndəsi təsvirin içərisində ustanın adı ərəb dilində süls xəttilə həkk olunmuşdur: "Əməl Əsədullah" – "Əsədullahın işi". Digər tuğrayabənzər haşiyənin içərisində ərəb dilində süls xəttilə kitabə həkk olunmuşdur: "Şah Abbas bin vəliəhdin" – "Vəliəhdin (hökmdarın) oğlu Şah Abbas" (şəkil 7).

Qılıncın qını taxtadan hazırlanmış və üzərinə dəri məmulatından üz çəkilmişdir. Qının uc hissəsinin üzəri çox zərif nəbati naxışlarla və qızılişləmə ilə bəzədilmiş, xüsusi formada kəsilmiş metal bənd olunmuşdur. Beldən asmaq üçün iki yerdən qının üzərinə yarpaq formada kəsilmiş ikiüzlü metal hissələr bənd olunmuşdur. Metal hissələrin üzərinin kənarları nəbati naxışlarla haşiyələnmiş və mərkəzdə səkkizləçəkli gül təsviri qızıl işləmə ilə tam naxışlanmışdır. Qılıncın tutacağındakı təsvir ilə qınının üzərindəki metal hissələrin naxışları zəngin kompozisiyası ilə yadda qalır. XIX əsrin əvvəllərinə aid olan qılınc yüksək rütbəli cəngavərlər üçün hazırlanmışdır.



8.

Döyüş bıçağı: Döyüş bıçaqları yaxın məsafəli döyüşdə tətbiq edilən birağızlı tiyəli silahlar növünə aiddir. Belə bıçaqların əksəriyyəti həm döyüşdə, həm də təsərrüfat işlərində istifadə olunurdu. Xəncərlərdən fərqli olaraq, döyüş bıçaqlarının tiyəsi birağızlı olur. Azərbaycan ərazisində arxeoloji qazıntılar zamanı tapılan belə hərbi bıçaqları (15, s. 153; tab. X) və orta əsr universal döyüş bıçaqlarını iki qrupa bölmək olar: düztiyəli və əyritiyəli bıçaqlar (16, s.88).

Adətən sümükdən, buynuzdan, ağacdan və metaldan hazırlanmış dəstəklər polad tiyələrin üzərinə bənd edilir. Milli Azərbaycan Tarixi Muzeyinin silah kolleksiyasında müxtəlif ölçülü və hər iki qrupa aid olan cox sayda hərbi bıçaqlar saxlanılır. Bu bıçaqlardan bəzilərinin üzərinin bədii tərtibatı sadədir, bəzilərinin üzəri isə mürəkkəb ornamentlərlə bəzədilmişdir. Bəzi döyüş bıçaqlarının üzərində isə çox nadir hallarda kalliqrafik yazılara təsadüf edilir. Məsələn, XIX əsrin əvvəllərinə aid düztiyəli və birağızlı bir ədəd döyüş bıçağının ümumi uzunluğu 37 sm, tiyəsinin uzunluğu 26 sm, eni 0,3 sm, dəstəyinin uzunluğu 11 sm, eni isə 0,5 sm–dir (SBF, avad. № 262, şəkil 8).

Bıçağın dəstəyinin hər iki tərəfi sümükdəndir. Dəstəyi və tiyəni birləşdirən yarımdairəvi hissədə çızma üsulu ilə islimi naxışların ətrafında ustanın adı süls xəttilə ərəb dilində həkk olunmuşdur: "əməl Cəfər Əli" (tərcüməsi - "Cəfər Əlinin işi"). Poladdan hazırlanmış bıçağın tiyəsinin hər iki tərəfinin üzərində nəbati təsvirli haşiyənin içərisində təkrarən "Ourani-Kərim"in "Fəth" surəsinin birinci ayəsi nəstəliq xətti ilə ərəb dilində həkk olunmuşdur: "İnnə fətəhnə ləkə fəthən mubinə" (tərcüməsi - "Həqiqətən, biz sənə açıq-aşkar bir zəfər bəxş etdik"). Bıçaq döyüş zamanı yaxın məsafədən düşmənə zərbə vurmaq məqsədilə hazırlanmışdır.

Azərbaycanın orta əsrlər tarixində müxtəlif tipli silahların istehsalına önəm verilmişdir. Bu nöqteyi-nəzərdən də silaha olan maraq təsadüfi deyil. Sənətkarlarımız hazırladıqları silahlar üzərində mürəkkəb ornamentli kompozisiyalarla yanaşı, "Qurani-Kərim"in bəzi surələrinə də müraciət etmişlər. Bu məqsədlə də kufi, nəsx, süls, təliq və nəstəliq yazı növlərindən istifadə olunmuşdur.

Mənbələr:

1. İbrahimov F.Ə. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti (XI-XIII əsrlər). Bakı: Elm, 1988, s. 176.; Достиев Т.М. Средневековые археологические памятники северо-восточного Азербайджана (IX- середина XIII в.). Баку: Изд-во Бакинского Университета, 1999; Əhmədov S.Ə., Cəfərova E.B. Azərbaycanın orta əsr silahları (arxeoloji materiallar əsasında)/ Bakı: Elm, 2005
2. Babayev İ.A., Əhmədov Q. M. Qəbələ (tarixi-arxeoloji oçerk). Bakı: Elm, 1981; Novruzlu Ə.İ. Azərbaycanın orta əsr sənətkarlığı (XIV-XVII əsrlər). Bakı: 1997; Dostiyev T.M. Şimal-şərqi Azərbaycan IX-XV əsrlərdə (Quba-Xaçmaz bölgəsinin materialları əsasında tarixi-arxeoloji tədqiqat). Bakı: BDU nəşriyyatı, 2001, 396 s. (metalişləmə, s. 127-144); Джидди Г.А. Средневековый город Шемаха (IX-XVII века) (историко-археологическое исследование). Баку: Элм, 1981, с. 174; İbrahimov F.Ə. Bakıda metalişləmə tarixi (IX-XVII əsrlər). Bakı: Elm, 1995.

3. MATM Arxelogiya fondunun materialları.
4. Azərbaycan tarixi. I cild. Bakı: Azərnəşr, 1958
5. Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci ilə qədər). Bakı: Azərnəşr, 1996, 872 s.
6. Gəncəvi Nizami. İsgəndərnamə. Bakı: Azərnəşr, 1962
7. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Арабо-персо-тюркоязычные надписи Баку и Апшерона (XI - начала XX веков). Том 1, Баку: Элм, 1991, с. 248; Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Арабо-персо-тюркоязычные надписи Шеки-закатальской зоны (XIV век - начало XX века). Том II, Баку: XXI Yeni Nəşrlər Evi, 2000, с. 368 (с иллюстр.); Əliyeva H. Ağsunun epiqrafk abidələri (XVIII əsr Ağsu şəhər qəbiristanlığı orta əsrlərdə (tarixi-arxeoloji araşdırma). II buraxlış, Bakı: CBS Pol. Production, 2010
8. Кильчевская Э.В. От изобразительности к орнаменту. Москва: Наука, 1968; Berk S. Zeytinburnu Tarihi Mezar Taşları. Kataloq. İstanbul, ZBB, 2007
9. Nemət M. Padnoslar üzərindəki kitabələr / "Elm" qəzeti, № 19-20, 31.05.2000, s. 18-19.
10. Сурхай М. О двух бронзовых рукоятках с седловидными навершиями // Azərbaycan Tarixi Muzeyi - 2002, Bakı: Elm, s.
11. Рыбаков Б.А. Ремесло в древней Руси. Изд. АН СССР, Москва, 1948
12. Toledo-Madrid (onların sanatı, tarihi). Artes Graficas Toledo, S.A.U., 2000
13. "Qurani-Kərim" (ərəb dilində tərcümə edənlər: Z.Bünyadov və V.Məmmədəliyev). Bakı:Azərnəşr, 1991
14. Azərbaycan bayraqları. Kataloq. Bakı: Elm, 2005
15. İbrahimov F.Ə. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti (XI-XIII əsrlər). Bakı: Elm, 1988
16. Əhmədov S.Ə., Cəfərova E.B. Azərbaycanın orta əsr silahları (arxeoloji materiallar əsasında). Bakı: Elm, 2005

Habiba Aliyeva
PhD in History

Inscriptions of medieval weapons of Azerbaijan

(On the basis of the materials of ANAS National History Museum of Azerbaijan)

Key words: *weapon, inscription, sheath, scimitar, shaft, Suls, Naskh, Nastalik*

Summary

For the first time, medieval weapons of Azerbaijan are epigraphically studied in the article through citing sources, literature and real tangible discoveries that are held in the National History Museum of Azerbaijan. In addition to the identification of these types of weapons, the author made a comparative analysis between them and the weapons stored in the European and Asian countries.

Габиба Алиева
доктор философии по истории

Надписи на средневековом оружии Азербайджана

(На основе материалов Музея национальной истории Азербайджана НАНА)

Ключевые слова: *оружие, надписи, ножевище, ножны, рукоятка, сюлс, насх, насталик.*

Резюме

В статье впервые со ссылкой на источники, литературу и артефакты, хранящиеся в Национальном музее истории Азербайджана, эпиграфически исследовано средневековое оружие Азербайджана. Наряду с классификацией видов оружия, автор провел их сравнительный анализ с различными видами оружия, хранящимися в музеях и коллекциях стран Европы и Азии.